## Məhsulların (işlərin, xidmətlərin) sertifikatlaşdırılmasının mərhələlər üzrə tətbiq edilməsi haqqında[1]

AZƏRBAYCAN RESPUBLİKASI NAZİRLƏR KABİNETİNİN QƏRARI

Nazirlər Kabineti qeyd edir ki, xarici iqtisadi əlaqələrin genişlənməsi və hökumətlərarası ticarət-iqtisadi Sazişlərin yerinə yetirilməsi məhsulların (işlərin, xidmətlərin) keyfiyyətinin beynəlxalq qaydalar əsasında təmin edilməsini, ilk növbədə sertifikatlaşdırılmasını tələb edir. Respublika iqtisadiyyatının bağlı olduğu keçmiş İttifaq respublikalarında 1993-cü il yanvarın 1-dən etibarən məhsulların sertifikatlaşdırılması tətbiq edilməyə başlanmışdır.

Malların ixracı və idxalı üzrə yeni qaydanın tətbiq edilməsi nəticəsində yarana biləcək iqtisadi itkilərin qarşısını almaq və Milli sertifikatlaşdırma sisteminin yaradılmasını sürətləndirmək məqsədilə Azərbaycan Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. 1994-cü il yanvarın 1-dən etibarən respublikada məhsulların (işlərin, xidmətlərin) *insan həyatı və ya sağlamlığının, ətraf mühitin və dövlətin əmlak maraqlarının birbaşa və mühüm təhlükələrdən və ya mühüm zərərlərdən qorunması üçün* təhlükəsizlik göstəriciləri üzrə mərhələlərlə sertifikatlaşdırılması tətbiq edilsin.[2]
2. Milli Sertifikatlaşdırma Sistemi haqqında Əsasnamə təsdiq edilsin (əlavə olunur).
3. Təhlükəsizliyi təmin ediləcək məhsulların siyahısı təsdiq edilsin (əlavə olunur).
4. Nazirlik, şirkət, konsern, istehsalat birlikləri, assosiasiyalar, bütün mülkiyyət formalarından olan müəssisə və ticarət strukturlarının rəhbərlərinə, sahibkarlara tapşırılsın ki, sertifikatlaşdırmanın müəyyən qaydada və müddət çərçivəsində tətbiq edilməsini təmin etmək üçün müvafiq tədbirlər hazırlayıb həyata keçirsinlər.
5. Azərdövlətstandarta tapşırılsın ki, sertifikatlaşdırma sahəsində aparılan işlərin əlaqələndirilməsi və həyata keçirilməsi məqsədilə bir ay müddətində əlaqədar nazirlik, idarə və təşkilatlarla razılaşdırılmış tədbirlər kompleksi işləyib hazırlasın və icrasına nəzarət etsin.

**Baş nazirin birinci müavini V. ƏHMƏDOV**

Bakı şəhəri, 1 iyul 1993-cü il
№ 343

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1993-cü il 1 iyul tarixli, 343 nömrəli qərarı ilə
təsdiq olunmuşdur

## Milli sertifikatlaşdırma sistemi haqqında

## ƏSASNAMƏ

### Əsas müddəalar

Bu sənəd Azərbaycan Respublikasında məhsulun (proseslərin, xidmətlərin) məcburi və könüllü sertifikatlaşdırılmasının əsaslarını, bu sahədə dövlət idarəetmə orqanlarının, xüsusi səlahiyyət verilmiş orqanların, müxtəlif mülkiyyət formalı müəssisələrin, sahibkarların və sertifikatlaşdırma işləri üzrə digər iştirakçıların hüquq, vəzifə və məsuliyyətlərini müəyyənləşdirir.

Bu sənəddə İSO/MEK 2 Rəhbərlik sənədinə və İSO 8402—86 beynəlxalq standartına uyğun olan aşağıdakı məfhumlar, terminlər və onların tərifləri tətbiq olunur:

**sertifikasiya** — səlahiyyətli orqan tərəfindən məhsulun (xidmətlərin, proseslərin) normativ sənədin tələblərinə uyğunluğunun təsdiqi;

**uyğunluğun sertifikatlaşdırılması** — lazımi tərzdə eyniləşdirilmiş məhsulun, prosesin və xidmətin konkret standarta və ya digər normativ sənədə uyğun zəmanəti inamlı şəkildə sübut edən üçüncü tərəfin fəaliyyəti;

**məcburi sertifikatlaşdırma** — xüsusi səlahiyyət verilmiş orqan tərəfindən məhsulun (proseslərin, xidmətlərin) normativ sənədlərin məcburi tələblərinə uyğunluğunun təsdiqi;

**könüllü sertifikatlaşdırma** — istehsalçının (icraçının, satıcının, tədarükçünün), məhsulun istehlakçısının (istehlakçılar cəmiyyətlərinin və ittifaqlarının), həmçinin dövlət orqanlarının (sonralar — sifarişçi) təşəbbüsü ilə könüllülük əsasında keçirilən sertifikatlaşdırma;

**normativ sənəd** — məhsula və xidmətə, həmçinin onların keyfiyyətinin qiymətləndirmə metodlarına aid tələbləri əks etdirən standart, sanitar normaları və qaydaları, yaxud başqa sənəd;

**beynəlxalq standart** — standartlaşdırma üzrə beynəlxalq təşkilatın qəbul etdiyi və geniş istehlakçı dairələri üçün istifadəsi açıq olan standart;

**milli standart** — standartlaşdırma üzrə milli orqan tərəfindən qəbul edilmiş və geniş istehlakçı dairələri üçün istifadəsi açıq olan standart;

**uyğunluq haqqında məlumat** — tədarükçünün tam məsuliyyəti ilə məhsulun, prosesin və ya xidmətin konkret standarta və yaxud digər normativ sənədə uyğun olması haqqında verilmiş məlumat;

**sertifikatlaşdırma sistemi** — uyğunluq sertifikatlaşdırması aparmaq üçün xüsusi üsullara və idarəetmə qaydalarına malik sistem;

**oxşar məhsulun (proseslərin, xidmətlərin) sertifikatlaşdırma sistemi** — eyni konkret standartlar, qaydalar və üsullar tətbiq edilən müəyyən məhsulların, proseslərin, xidmətlərin sertifikatlaşdırma sistemi;

**sertifikatlaşdırma üzrə orqan** — uyğunluq sertifikatlaşdırması aparan orqandır;

**uyğunluq sertifikatı** — sertifikatlaşdırma sisteminin qaydalarına müvafiq surətdə nəşr edilmiş, lazımi tərzdə eyniləşdirilmiş məhsul, proses və xidmətin konkret standarta və ya digər normativ sənədə uyğun olduğuna zəruri əminliyin təmin

edildiyini göstərən sənəd;

**uyğunluq nişanı** — göstərilən məhsulun, prosesin, yaxud xidmətin konkret standarta və ya digər normativ sənədə uyğunluğuna zəruri əminliyin təmin edildiyini göstərən, sertifikatlaşdırma sisteminin qaydalarına uyğun verilən və tətbiq edilən, müəyyən olunmuş qaydada müdafiə olunan nişan (sertifikatlaşdırma sahəsində);

sertifikatlaşdırma sisteminin üzvü — verilmiş sistemin qaydalarına uyğun fəaliyyət göstərən və sistemin idarə olunmasında iştirak etmək imkanına malik olan sertifikatlaşdırma orqanı;

**akkreditasiya** — sertifikatlaşdırma üzrə hər hansı bir fəaliyyət göstərmək üçün səlahiyyətlərin rəsmi tanınması;

**akkreditasiya olunmuş laboratoriyalar** — konkret məhsul növlərinin (proseslərin, xidmətlərin) sınağının və ya konkret sınaq növlərinin aparılmasına dair səlahiyyətləri rəsmi surətdə tanınmış sınaq laboratoriyaları;

**xüsusi səlahiyyət verilmiş orqan** — konkret bir obyektin sertifikatlaşdırma sisteminə rəhbərlik edən və akkreditasiya nəticəsində konkret obyektin sertifikatlaşdırılmasının aparılmasına və sınaq laboratoriyalarının akkreditasiyasının keçirilməsinə dair səlahiyyətlər almış sertifikatlaşdırma üzrə orqan, akkreditasiya edilmiş sınaq laboratoriyaları və digər müəssisə, təşkilat və idarələr (onların struktur bölmələri və birlikləri), eləcə də dövlət idarəetmə orqanları;

**təhlükəsizlik** — ziyan vura biləcək yolverilməz risqin olmaması;

**ətraf mühitin mühafizəsi** — məhsulun, proseslərin, yaxud xidmətlərin mənfi təsirindən ətraf mühitin mühafizəsi;

**istehsalat attestasiyası** — sertifikatlaşdırma üzrə və yaxud xüsusi səlahiyyət verilmiş digər orqan tərəfindən göstərilən məhsulun istehsalı (xidmətlərin icrası) üçün normativ sənədlərdə verilmiş və sertifikatlaşdırma zamanı yoxlanılan tələblərin stabilliyini təmin edən zəruri və lazımi şərtlərin mövcudluğunun rəsmi təsdiqi;

**inspeksiya nəzarəti** — sertifikatlaşdırma üzrə akkreditasiya edilmiş orqanların, sınaq laboratoriyalarının fəaliyyətinə, həmçinin sertifikatlaşdırılmış məhsula və onun istehsalına nəzarət;

**sifarişçi** — konkret tipli (markalı) məhsulun sertifikatlaşdırılması haqqında sertifikatlaşdırma orqanına sifariş ilə müraciət etmiş müəssisələr, təşkilatlar, vətəndaşlar;

**ekspert-auditor** — sertifikatlaşdırma sahəsində bir, yaxud bir neçə növ işləri aparmaq üçün attestasiyadan keçmiş və hüquq almış şəxs;

**keyfiyyət sistemi** — keyfiyyətə ümumi rəhbərliyin həyata keçirilməsini təmin edən təşkilatı strukturun, məsuliyyətin, prosedurların, proseslərin və ehtiyatların məcmusu;

**sertifikatlaşdırma sxemi** — uyğunluq sertifikatlaşdırılması keçirilən zaman üçüncü tərəfin fəaliyyətinin tərkibi və ardıcıllığı.

## 1. Ümumi müddəalar

### 1.1. Sertifikatlaşdırmanın məqsədləri

1.1.1. Sertifikatlaşdırma aşağıdakı məqsədlər üçün keçirilir:

*insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaradan və ya mühüm zərər vuran* məhsulun (proseslərin, xidmətlərin) buraxılmasının və satışının qarşısını almaq;[3]

istehlakçılara məhsulun (proseslərin, xidmətlərin) səriştəli seçilməsində köməklik;

Respublika müəssisələrinin və sahibkarlarının beynəlxalq iqtisadi, elmi-texniki əməkdaşlıqda və beynəlxalq ticarətdə iştirakı üçün şərait yaratmaq;

### 1.2. Beynəlxalq müqavilələr

1.2.1. Əgər Azərbaycan Respublikasının iştirak etdiyi beynəlxalq müqavilədə Milli sertifikatlaşdırma sistemində nəzərdə tutulan qaydalardan fərqli qaydalar müəyyən edilmişsə, onda beynəlxalq müqavilədəki qaydalar tətbiq olunur.

## 2. Sertifikatlaşdırma üzrə fəaliyyətə ümumi tələblər

### 2.1. Sertifikatlaşdırma sistemlərinin obyektləri və şərtləri

2.1.1. Sertifikatlaşdırma üzrə işlər sertifikatlaşdırma sistemləri yaratmaq yolu ilə təşkil olunur. Bu sistemlərdə oxşar məhsulun (proseslərin, xidmətlərin) istehsal xüsusiyyətlərini, tədarükünü (icrasını), beynəlxalq sistemlərin və sazişlərin tələblərini nəzərə almaqla sertifikatlaşdırma qaydaları müəyyənləşdirilir.

2.1.2. Hüquqi və fiziki şəxslər özlərinin xüsusi sertifikatlaşdırma sistemlərini yaratmaq, yaxud fəaliyyətdə olan sistemlərə qoşulmaq haqqında qərar qəbul etmək hüququna malikdirlər.

2.1.3. Sertifikatlaşdırma sistemləri yaradılarkən aşağıdakılar olmalıdır:

sertifikatlaşdırma obyektləri, həmçinin uyğunluğuna sertifikasiya aparılacaq normativ sənədlərin kateqoriya və növləri təyin edilməli;

verilmiş sistemdə sertifikatlaşdırmanı aparma qayda və üsulları müəyyən edilməli.

2.1.4. Xaricdə sertifikatların və uyğunluq nişanlarının tanınmasını təmin etmək üçün AZS Milli sertifikatlaşdırma sistemi qüvvədə olan norma və qaydalara uyğun qurulur və fəaliyyət göstərir, həm də beynəlxalq, regional və digər ölkələrin Milli sertifikatlaşdırma sistemləri ilə qarşılıqlı əlaqədə işləyir.

2.1.5. AZS Milli sertifikatlaşdırma sistemi sertifikatlaşdırma üzrə funksiyalar həvalə olunmuş dövlət orqanları, sınaq laboratoriyaları, başqa ölkə, təşkilat və müəssisələrinin iştirakı üçün açıqdır.

2.1.6. AZS Milli sertifikatlaşdırma sistemi hər hansı bir başqa sertifikatlaşdırma sistemi kimi, istehlakçıların, ictimai təşkilatların, sertifikatlaşdırma üzrə orqanların, sınaq laboratoriyalarının, həmçinin bütün digər marağı olan müəssisə və təşkilatların, ayrı-ayrı şəxslərin, sistemin fəaliyyəti, o cümlədən onun qaydaları, sistemin iştirakçıları, akkreditasiya və sertifikatlaşdırmanın nəticələri haqqında informasiyadan sərbəst istifadə etməsini nəzərdə tutur. Kommersiya sirri olan informasiyanın məxfiliyi təmin olunur.

2.1.7. Milli sertifikatlaşdırma sisteminin rəsmi dili — Azərbaycan dilidir. Sistem çərçivəsində istifadə olunan, qeydiyyatdan keçirilən və verilən sənədlər (sifarişlər, protokollar, aktlar, attestatlar, sertifikatlar və s.) Azərbaycan dilində tərtib olunur. Sifarişçinin arzusu ilə xüsusi ödənclə sənədlərin nüsxələri istənilən dildə verilə bilər.[4]

2.1.8. Sertifikatlaşdırmaya məhsulla (proseslərlə, xidmətlərlə) yanaşı, proqramlar və digər elmi-texniki məhsullar, həmçinin təşkilati-texniki və informasiya sistemləri də təqdim oluna bilər.

-

**2.2. AZS Milli sertifikatlaşdırma sisteminin strukturu**

-

2.2.1. AZS Milli sertifikatlaşdırma sisteminin təşkilati strukturunu aşağıdakılar təşkil edir:

sertifikatlaşdırma üzrə Milli orqan;

oxşar məhsulun sertifikatlaşdırılması üzrə akkreditasiya olunmuş orqanlar;

akkreditasiya olunmuş sınaq laboratoriyaları (mərkəzləri);

keyfiyyət sistemlərinin sertifikatlaşdırılması və istehsalatların attestasiyası üzrə akkreditasiya olunmuş orqanlar;

2.2.2. Sertifikatlaşdırma üzrə Milli orqanın vəzifələri aşağıdakılardır:

müvafiq qanunverici və icraedici orqanlar ilə qarşılıqlı əlaqə əsasında respublikada sertifikatlaşdırmanın istifadəsi, inkişafı və təkmilləşdirilməsi üzrə ümumi siyasətin işlənib hazırlanması;

respublikada sertifikatlaşdırmanı təmin edən işlərin təşkili və koordinasiyası;

sertifikatlaşdırma məsələsi üzrə başqa ölkələrin, beynəlxalq təşkilatların səlahiyyətli orqanları ilə müəyyən olunmuş qaydada qarşılıqlı fəaliyyət, lazımi hallarda bu təşkilatların işində respublikanın iştirakının təmin olunması.

2.2.3. Sistemə daxil olan orqanların tərkibi, sertifikatlaşdırma iştirakçılarının vəzifə və məsuliyyətləri, həmçinin konkret sistemdə sertifikatlaşdırma üzrə işlərin xərcinin ödənilməsinin formaları və miqdarı ona başçılıq edən orqan tərəfindən Azərbaycan Respublikasının Standartlaşdırma, Metrologiya və Patent üzrə Dövlət Agentliyinin təsdiq etdiyi tariflərlə müəyyən edilir.[5]

2.2.4. Sertifikatlaşdırma üzrə Milli orqan:

bütün sistemlər üçün ümumi qurulma və fəaliyyət prinsiplərini, AZS Milli sertifikatlaşdırma sisteminin strukturunu, sertifikatını, uyğunluq nişanını və onların tətbiqi qaydalarını müəyyən edir;

bütün sertifikatlaşdırma sistemlərinin qarşılıqlı fəaliyyətini koordinasiya edir;

bütün əlaqədar tərəflərin nümayəndələrindən ibarət komissiyalarla sertifikatlaşdırma üzrə orqanların və sınaq laboratoriyalarının (mərkəzlərinin) akkreditasiyasını, həmçinin ekspert-auditorların attestasiyasını və onların fəaliyyətinə inspeksiya nəzarətini həyata keçirir;

AZS Milli sertifikatlaşdırma sisteminin Dövlət Reyestrini aparır;

akkreditasiya, attestasiya və sertifikatlaşdırma üzrə qiymət tarifləri müəyyənləşdirir;[6]

sertifikatlaşdırma və akkreditasiyanın nəticələri üzrə apellyasiyalara baxır;

verilmiş konkret məhsul (proseslər, xidmətlər) növü üçün sertifikatlaşdırma orqanı olmadıqda, həmin orqanın funksiyasını həyata keçirir;

bütün əlaqədar tərəflər üçün sertifikatlaşdırma üzrə informasiyanın açıqlığını təmin edir;

sistemin qaydalarına riayət olunmasına inspeksiya nəzarətini həyata keçirir;

öz funksiyalarını xüsusi səlahiyyət verilmiş orqanlara həvalə etmək hüququna malikdir.

2.2.5. AZS Milli sertifikatlaşdırma sistemində akkreditasiya olunmaq iddiasında olan təşkilat və laboratoriyalar (mərkəzlər) hüquqi şəxs statusuna malik olmalıdırlar. Müstəqilliyi isə o dərəcədə olmalıdır ki, inzibati tabeçilik, maliyyə vəziyyəti onların heyətinə kommersiya, inzibati yaxud hər hansı başqa təsirlərin mümkünlüyünü tamamilə istisna etsin, sifarişçi yaxud digər əlaqədar tərəflərin apardığı sertifikatlaşdırma və sınaqların nəticələrinə təsir göstərmək iqtidarında olmasın.

Dövlət, icarə, kooperativ və digər mülkiyyət formalı müəssisə və təşkilatlar sınaq laboratoriyası kimi akkreditasiya oluna bilər.

AZS Milli sertifikatlaşdırma sisteminin qaydalarına əsasən vəsaitlərə və sənədləşdirilmiş prosedurlara malik olan təşkilat və müəssisələr, o cümlədən (ETİ və Azərbaycan Respublikasının A*ntiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Agentliyinin* ərazi təşkilatları daxil olmaqla) səhmdar cəmiyyətləri, assosiasiyalar sertifikatlaşdırma üzrə orqanlar kimi akkreditasiya oluna bilərlər.[7]

2.2.6. Sertifikatlaşdırma üzrə orqan kimi akkreditasiya olunmaq və fəaliyyət göstərmək istəyən təşkilatlar lisenziya müqaviləsində AZS Milli sertifikatlaşdırma sistemində müəyyən olunmuş bütün qayda və tədbirləri qəbul etdiklərini rəsmi şəkildə bildirməlidirlər.

2.2.7. Sertifikatlaşdırma üzrə Milli orqan istehsalçılara (icraçılara), ticarət təşkilatlarına, istehlakçılara və digər əlaqədar şəxslərə fəaliyyət göstərən sertifikatlaşdırma sistemləri, onlara başçılıq edən orqanlar, həmçinin sertifikatlar, uyğunluq nişanları və onların tətbiqi qaydaları haqqında informasiya verməyə borcludur.

2.2.8. Sertifikatlaşdırma sistemlərinə başçılıq edən orqanlar kommersiya sirri olan məlumatları istisna etməklə, məhsulun sertifikatlaşdırılmasının qayda və üsulları haqqında məlumatları əlaqədar tərəflərin nəzərinə çatdırmağa borcludurlar. Kommersiya sirri olmayan məlumatların siyahısı sertifikatlaşdırma sisteminə başçılıq edən orqan tərəfindən müəyyənləşdirilir və əlaqədar tərəflərin nəzərinə çatdırılır.[8]

-

**2.3. Sertifikatlaşdırma üzrə səlahiyyət verilmiş orqanlar**

-

2.3.1. Sertifikatlaşdırma sistemlərinə rəhbərliyi həyata keçirən dövlət idarəetmə orqanları sertifikatlaşdırma üzrə səlahiyyət verilmiş orqan hesab edilir və özünün səlahiyyətləri daxilində:

təhkim olunmuş məhsul (proseslər, xidmətlər) növləri üzrə Azərbaycan Respublikası ərazisində sertifikatlaşdırmanın ümumi prinsiplərini müəyyənləşdirir;

beynəlxalq və regional sertifikatlaşdırma sistemlərinə qoşulma haqqında qərarlar qəbul edir, həmçinin sertifikatlaşdırmanın nəticələrinin qarşılıqlı tanınması haqqında sazişlər bağlayır;

xarici orqanlarla qarşılıqlı əlaqələrdə və beynəlxalq təşkilatlarda sertifikatlaşdırma məsələləri üzrə Azərbaycan Respublikasını təmsil edir.

-

**2.4. Sertifikat və uyğunluq nişanı**

-

2.4.1. Məhsul (proseslər, xidmətlər) sertifikatlaşdırılarkən sertifikatlaşdırma üzrə orqan müsbət qərar qəbul edirsə, sifarişçiyə həmin məhsulun (proseslərin, xidmətlərin) uyğunluq nişanı və nişanlamaq hüququ verən sertifikat (sertifikat

lisenziyası) verilir.

2.4.2. AZS Milli sertifikatlaşdırma sistemində istifadə olunan uyğunluq sertifikatı müəyyənləşdirilmiş qaydada qeydiyyatdan keçirilir. *Milli akkreditasiya qurumu qeydiyyata alınmış uyğunluq sertifikatları ilə bağlı informasiya ehtiyatının "Lisenziyalar və icazələr" portalına inteqrasiyasını təmin edir.*[9]

2.4.3. AZS Milli sertifikatlaşdırma sistemində istifadə olunan uyğunluq nişanı Qanunla müdafiə olunur.

2.4.4. Uyğunluq nişanından qanunsuz istifadəyə yol verilmir.

## 3. Məhsulun (proseslərin, xidmətlərin) təhlükəsizlik tələblərinə uyğunluğu üzrə məcburi sertifikatlaşdırılma

### 3.1. Məcburi sertifikatlaşdırılmanın aparılması şərtləri

3.1.1. *İnsan həyatı və ya sağlamlığının, ətraf mühitin və dövlətin əmlak maraqlarının müdafiəsi* üçün təhlükəsizlik göstəriciləri üzrə məhsul (proseslər, xidmətlər) məcburi sertifikatlaşdırmadan keçməlidir.[10]

3.1.2. Məhsulun (proseslərin, xidmətlərin) normativ sənədlərində *insan həyatı və ya sağlamlığı, ətraf mühit və dövlətin əmlak maraqları* üçün təhlükəsizliyinə dair tələblər olmadıqda, lakin məhsulun (proseslərin, xidmətlərin) istifadəsi, saxlanması və daşınması zamanı təhlükə ehtimalı olduqda göstərilən tələbləri daxil etmək məqsədilə sənəd yenidən baxılmalıdır.[11]

3.1.3. Məcburi sertifikatlaşdırmaya bütün hallarda məhsulun (proseslərin, xidmətlərin) göstəricilərini təyin etmək üçün sınaqlar keçirmək və sonrakı istehsal prosesində onların təmin olunmasına inspeksiya nəzarəti aparmaq daxildir.

Məcburi sertifikatlaşdırma sınaqları müvafiq sertifikatlaşdırma sistemində akkreditasiya olunmuş sınaq laboratoriyalarında (mərkəzlərində) müvafiq normativ sənədlərdə müəyyən olunmuş metodlarla, onlar olmadıqda isə sertifikatlaşdırma üzrə orqanların müəyyən etdiyi metodlarla aparılmalıdır.

3.1.4. Məcburi sertifikatlaşdırmaya aid məhsulların siyahısı Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən təsdiq olunur və ona ildə bir dəfədən az olmamaq şərtilə yenidən baxılır.

3.1.5. Sertifikatlaşdırma üzrə Milli və səlahiyyət verilmiş orqanlar öz səlahiyyətləri çərçivəsində normativ sənədlərin təhlükəsizlik göstəriciləri üzrə tələblərin yerinə yetirilməsini bilavasitə təmin edən xarakteristika və xüsusiyyətlər cəhətindən xammal, materialların, komplektləşdirici məmulatların məcburi sertifikatlaşdırılmasını tətbiq etmək hüququna malikdirlər.

### 3.2. Məcburi sertifikatlaşdırmaya aid edilən məhsulun (proseslərin, xidmətlərin) realizə edilməsi

3.2.1. Məcburi sertifikatlaşdırmaya aid edilmiş məhsullar Azərbaycan Respublikası ərazisində, birbaşa istifadəsi üçün pərakəndə satış müəssisələrinə və ya istehlakçılara realizə edilə bilməz, əgər:

sertifikatlaşdırmaya təqdim olmamışsa;

normativ sənədlərin tələblərinə və ya sertifikatlaşmanın digər tələblərinə uyğun olmadığına görə sertifikatlaşmadan keçməmişsə;

sertifikatlaşdırılan tələblərə cavab verilməmişsə, həmçinin sertifikatın qüvvədə olma müddəti qurtarmışsa və yaxud dayandırılmışsa (ləğv olunmuşsa).

Qanunsuz olaraq uyğunluq nişanı ilə nişanlanmış, yaxud sertifikatlaşdırıldığı tələblərə cavab vermədiyi hallarda uyğunluq nişanı ilə nişanlanmış məhsulların realizə edilməsi qadağan olunur.

3.2.2. Sahibkar Azərbaycan Respublikasının hüdudlarından kənara məhsulu sertifikatlaşmadan keçməsini təsdiq edən sənədlər olmadan (əgər buna ixrac edən ölkənin qanunvericiliyi yol verirsə), həmçinin, əgər qanunvericilikdə başqa cür nəzərdə tutulmayıbsa, digər məqsədlə istifadə üçün realizə etmək hüququna malikdir. Bu halda *insan həyatı və ya sağlamlığına, ətraf mühitə və dövlətin əmlak maraqlarına birbaşa və mühüm təhlükə yaratmasına və ya mühüm zərər* vurulmasına yol verilməməlidir.[12]

### 3.3. Məhsulun (proseslərin, xidmətlərin) məcburi sertifikatlaşdırılması zamanı səlahiyyət verilmiş orqanların hüquqları

3.3.1. Oxşar məhsul (proseslər, xidmətlər) üzrə sertifikatlaşdırma orqanı aşağıdakı hüquqlara malikdir:

uyğunluq sertifikatı və məhsulun (proseslərin, xidmətlərin) uyğunluq nişanı ilə nişanlamaq hüququ verən lisenziya vermək;

təhkim olunmuş məhsul (proseslər, xidmətlər) növlərinin sertifikatlaşdırma qayda və üsullarına riayət olunmasına inspeksiya nəzarətini həyata keçirmək;

onlara verilmiş uyğunluq sertifikatının və lisenziyanın qüvvədə olmasını ləğv etmək, yaxud dayandırmaq.

Oxşar məhsul (proseslər, xidmətlər) üzrə sertifikatlaşdırma orqanı məsuliyyət daşıyır:

sertifikatlaşdırmanın nəticələrinin obyektivliyinə görə;

sertifikatlaşdırmanın gedişi zamanı alınan informasiyanın məxfiliyinin açıqlanmasına görə;

şəhadətnamə almaq istəyənlərə qarşı hüquq bərabərliyini pozan hərəkətlərə görə.

3.3.2. AZS Milli sertifikatlaşdırma sistemində akkreditasiya olunmuş sınaq laboratoriyası (mərkəzi) verilmiş sistemdə sertifikatlaşdırmanın məqsədləri üçün yalnız akkreditasiya (tanınma) sahəsində sınaq aparmaq hüququna malikdir.

Akkreditasiya olunmuş sınaq laboratoriyası (mərkəzi) aşağıdakıları təmin etməlidir:

sınaqların səriştəli aparılmasını və onların nəticələrinin doğruluğunu;

laboratoriyanın akkreditasiya tələblərinə uyğunluğunun yoxlanmasının mümkün olmasını;

sınaqların nəticələri haqqında informasiyanın məxfiliyini.

3.3.3. Ekspert-auditor AZS Milli sertifikatlaşdırma sistemi tərəfindən müəyyən olunmuş qaydada attestasiya olunmalı və qeydiyyatdan keçməlidir.

### 3.4. Məcburi sertifikatlaşdırma zamanı istehsalçının (tədarükçülərin, ticarət təşkilatlarının) vəzifələri

3.4.1. Məhsulun (proseslərin, xidmətlərin) Azərbaycan Respublikası ərazisində pərakəndə satış müəssisələrinə və istehlakçılara realizə edilməsini həyata keçirən müəssisələr (sahibkarlar) aşağıdakıları yerinə yetirməyə borcludurlar:

məhsulun məcburi sertifikatlaşdırılmasını həyata keçirən orqanların öz səlahiyyətlərinin maneəsiz yerinə yetirilməsini təmin etmək;

sertifikatlaşdırılmış məhsul (proseslər, xidmətlər), sertifikatlaşdırıldığı normativ tələblərinə uyğun deyilsə və eyni zamanda sertifikatın qüvvədə olma müddəti qurtarıbsa, həmçinin sertifikatın qüvvədə olması dayandırılıbsa yaxud o, sertifikatlaşdırma orqanının qərarı ilə ləğv olunubsa, onun realizə edilməsini müvəqqəti saxlamaq, yaxud tam dayandırmaq;

sertifikatlaşdırılmış məhsulun texniki sənədlərinə, yaxud istehsalın texnoloji prosesinə daxil edilmiş dəyişikliklər haqqında sertifikatlaşdırma orqanını xəbərdar etmək.

-

**3.5. İdxal olunan məhsulun sertifikatlaşdırılması**

-

3.5.1. Azərbaycan Respublikasında təyinatı üzrə birbaşa istifadə ediləcək məhsulun idxalına dair müqavilələr (kontraktlar) bağlanarkən, onların şərtlərində məhsulun sertifikatlaşdırılmasını göstərən və milli sertifikatlaşdırma orqanı tərəfindən tanınan sertifikatın olması nəzərdə tutulmalıdır.

3.5.2. Alınmış Milli uyğunluq sertifikatları yaxud tanınmış xarici sertifikatlar və uyğunluq nişanları yük gömrük deklarasiyası ilə birlikdə gömrükxana nəzarəti orqanına təqdim olunur və Azərbaycan Respublikası ərazisinə məhsulun gətirilməsinə icazə almaq üçün lazımi sənəd hesab olunur.

-

**3.6. Məcburi sertifikatlaşdırma üzrə işlərin maliyyələşdirilməsi**

-

3.6.1. Məcburi sertifikatlaşdırma üzrə işlərin xərcinin ödənilməsi sifarişçi tərəfindən sərbəst tariflər və Milli sertifikatlaşdırma sisteminin müəyyən etdiyi qaydalarla yerinə yetirilir.[13]

-

**4. Sertifikatlaşdırma üzrə akkreditasiya olunmuş orqanların, sınaq laboratoriyalarının (mərkəzlərinin), həmçinin istehsalçıların (icraçıların), satıcıların məcburi sertifikatlaşdırma qaydalarının pozulmasına görə məsuliyyət**

-

4.1. Sertifikatlaşdırma üzrə akkreditasiya olunmuş orqanları və sınaq laboratoriyalarını (mərkəzləri) aşağıdakı hallarda məsuliyyət daşıyır:

əsassız olaraq uyğunluq sertifikatı verdiyinə görə;

məhsulun sınağının yanlış nəticələrini təqdim etdiyinə görə;

təkrarən əsassız olaraq uyğunluq sertifikatı verdiyinə görə;

təkrarən məhsulun sınağının yanlış nəticələrini təqdim etdikdə.

4.2. İstehsalçılar (icraçılar), ticarət təşkilatları aşağıdakı hallarda məsuliyyət daşıyırlar:

məcburi sertifikatlaşdırılmalı məhsulu (prosesləri, xidmətləri) sertifikatsız realizə etdiyinə görə;

məhsulu (prosesləri, xidmətləri) sertifikatlaşdırıldığı normativ sənədlərin tələblərinə uyğun olmadığı halda realizasiya etdiyinə görə;

realizasiyası dayandırılmış və ya qadağan olunmuş məhsulu realizasiya etdiyinə görə;

sertifikatlaşdırılmadan keçməmiş, yaxud sertifikatlaşdırıldığı normativ sənədin tələblərinə uyğun olmayan məhsulu (prosesləri, xidmətləri), həmçinin sertifikatın qüvvədə olan müddəti qurtardıqda və ya ləğv olunduqda uyğunluq nişanı ilə nişanlandığına görə.

4.3. Sertifikatlaşdırma üzrə qaydaların pozulmasına görə vəzifəli şəxslər aşağıdakı hallarda məsuliyyət daşıyır:

müəssisələr (istehsalçılar, tədarükçülər) bu sənədin 4.2-ci bəndində nəzərdə tutulan qaydaları pozduqda, həmçinin sertifikatlaşdırılmış məhsula inspeksiya nəzarəti keçirən şəxslərə maneə törətdikdə;

sertifikatlaşdırma üzrə orqanlar və akkreditasiya olunmuş sınaq laboratoriyaları (mərkəzləri) aşağıdakı hallarda günahkar olduqda;

sertifikatlaşma sınaqlarının qeyri-obyektiv aparılması və onların protokollarında düzgün olmayan qeydlərin yazılmasına görə;

sertifikatlaşdırmanın aparılma qayda və müddətlərinin pozulmasında, məhsulun normativ sənədlərin tələblərinə uyğunluğunu təsdiq edən sənədlərin tərtib olunmasında, sertifikatlaşdırmadan keçməyən məhsula uyğunluq sertifikatı verilməsində.

-

-

-

Azərbaycan Respublikası Nazirlər Kabinetinin
1993-cü il 1 iyul tarixli, 343 saylı qərarı ilə
təsdiq olunmuşdur

-

**Təhlükəsizliyi 01 yanvar 1994-cü ildən təmin olunmalı məhsulların**

-

**SİYAHISI**

-

1. Ət, ət məhsulları, süd və süd məhsulları
2. Balıq və balıq məhsulları
3. Quş əti, toyuq yumurtası
4. Taxıl, un, yarmalar
5. Çörək-bulka və makaron məhsulları
6. Kofe, çay və ədviyyat
7. Təbii bal
8. Meyvə, tərəvəz və onların emal edilmiş məhsulları
9. Mal-qara və bitki yağları
10. Piylər
11. Marqarin

~~12. Qənd, şirniyyat və qənnadı məhsulları~~
~~13. Pivə, alkoqolsuz içkilər, sirkə~~
~~14. Xörək duzu~~
~~15. Tütün və tütün məhsulları~~
~~16. Uşaq arabası~~
~~17. Uşaq üçün çarxlar üzərində hazırlanmış uşaq oyuncaqları (üççarxlı velosipedlər, pedalla uşaq avtomobilləri) kuklalar üçün arabalar~~
~~18. Kuklalar, adamları təsvir edən~~
~~19. Digər uşaq oyuncaqları, kiçildilmiş ölçüdə modellər, başsındıran~~
~~20. Uşaqlar üçün əmzik, rezin qrelkalar~~
~~21. Suda üzmək üçün rezin maskalar, rezin lastlar~~
~~22. Uşaqlar üçün trusilər, alt tumanları, gecə köynəyi, pijamalar — ölçüsü 44-ə qədər~~
~~23. Kombinasiyalar, alt yubkalar, tumanlar, uşaq darbalaqları üçün analoji toxuma məmulatları~~
~~24. Maykalar, fufaykalar və ölçüsü 44-ə qədər olan uşaqlar üçün analoji toxunma məmulatları~~
~~25. Yeni anadan olmuş və məktəbyaşına qədər uşaqlar üçün alt paltarları~~
~~26. Uşaqların çimməsi üçün kostyum və üzgüçü tumanları — ölçüsü 44-ə qədər~~
~~27. Uşaqlar üçün ölçüsü 22-ə qədər olan kalqotkalar və corab məmulatları~~
~~28. Uşaq ayaqqabısı, ölçüsü 24-ə qədər~~
~~29. *Sintetik yuyucu vasitələr və məişət kimya məhsulları*~~[14]
~~30. Rezin əlcəklər, həmçinin tibb məqsədləri üçün istifadə olunan növləri~~
~~31. Gücü 1 kVt-dan çox olmayan transformatorlar, mülki aviasiya üçün təyin olunmamış ölçülərdən başqa~~
